





# Ağdamın qara günlərinə son qoyan Sərkərdə

## Doğru seçilən yolda inamla atılan hər addım qələbəyə aparır

**Zaman öz axarındadır. İllər bir-birini sürətlə əvəz edir. Xəyalımızda 30 il əvvəlin ağrı-acılı, ürək göynədən, könül sızladan mənzərəsi canlanır. Ermənistan silahlı qüvvələrinin işğalçılıq siyasəti nəticəsində odlara qalanıb viran qoyulan kəndlərimizdən, şəhərlərimizdən, doğma yuvalarından perik salınan soydaşlarımız ölkənin müxtəlif yerlərinə səpələnmiş, çadır şəhərciklərində, yük vaqonlarında, qazma daxmalarda məskunlaşmış, son dərəcə ağır və dözülməz məişət şəraitində yaşamağa məhkum edilmişdilər.**



O zaman respublikanın bütün bölgələri kimi, Bərdə də məcburi köçkünə çevrilən həmvətənlilərinə isti qucaq açmışdı. Doğma yurdundan qovulan soydaşlarımızın kompakt yaşadığı məkanlardan biri də Bərdədə salınmış Türk Qızıl Ay Çadır şəhərciyi idi. Rahat ev-eşiyini tərk etmək zorunda qalan insanlar uzun illər qışın ilik donduran şaxtasında, yayın hər yeri qovurqa kimi qovurduğu qızmar istilərdə çadırlarda yaşayır, taleyin məşəqqətli günlərinə səbirlə dözür, doğma yurda qayıdacaqlarına olan ümidlərini öləziməyə qoymurdular.

2003-cü ilin oktyabrı idi. İlham Əliyev prezidentliyə namizəd kimi Bərdədəki Türk Qızıl Ay Çadır şəhərciyinin sakinləri - seçiciləri ilə görüşdü. Cənab İlham Əliyev xalqın etimadını qazanıb seçiləcəyi halda özü üçün prioritet olacaq vəzifələri açıqladı. Dedi ki, ölkədə bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Hər cür sosial infrastruktura, rahatlığa malik yeni qəsəbələr tikilib məcburi köçkünlərin istifadəsinə veriləcək. Bir də inamla vurğuladı ki, siz ərazilərimizi, Qarabağı işğaldan azad edib doğma yurda dönüşün sevincini də yaşayacaqsınız.

Görüşdə kəlbəcərlilər, laçınlılar çox olsa da, ağdamlılar əksəriyyət təşkil edirdi. İlham Əliyevin əminlik və qətiyyətlə söylədiyi fikirlər görüş iştirakçılarının içindəki ümid işığını şölələndirirdi. Ağdamlılar bir daha inandılar ki, Heydər Əliyevin varisi, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olan İlham Əliyev dediyi sözə, verdiyi vədə mütləq sahib çıxacaq.

Doğru seçimini edən xalqın yanılmadığını zaman öz hökmü ilə dəfələrlə təsdiqlədi. Hər zaman Heydər Əliyev ideallarına sədaqətli olan ağdamlılar Azərbaycanın yeni Prezidenti seçilən İlham Əliyevin ətrafında sıx cərgələrlə birləşib, ona arxa oldular, tapşırıq və tövsiyələrini yüksək məsuliyyət hissi ilə yerinə yetirdilər, əsl vətəndaş mövqeyi nümayiş etdirdilər.

İllər bir-birini əvəzlədikcə xalq hər məqamda Prezident İlham Əliyevin öz vədinə, dediyi sözə necə sahib çıxdığını görür, təsdiq edir və bundan qürur duyurdu. Ağdamlılara düşən qayğı payı çox böyükdür. İlham Əliyev prezidentlik fəaliyyətinin ilk illərində "Qaçqın və məcburi köçkünlərin problemləri mənim üçün əsas prioritetdir" deyərək öz yaxın məqsədlərini əzmlə reallaşdırırdı. Çadır şəhərcikləri sürətlə yox olurdu. Əvəzində uzun illər ağır şəraitdə yaşayan soydaşlarımız yeni salınan qəsəbələrdə geniş, rahat, işıqlı mənzillərlə təmin edilirdilər. İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə təkcə Ağdam rayonunun ərazisində 18 yeni qəsəbə inşa olundu. 6625 ailə yeni mənzil və evlərlə təmin edildi. Hər qəsəbədə məktəb, uşaq bağçası, tibb məntəqəsi, klub və s. yaradıldı. Ağdama, qarabağlılara isti münasibətin məntiqi nəticəsidir ki, Prezident İlham Əliyev dövlət başçısı olduğu 20 ildə Ağdama 14 dəfə səfər etmişdir. Bu səfərlərin 9-u rayonun işğal edilməmiş ərazisinə, 5-i isə 44 günlük şanlı Qələbədən sonrakı Ağdama olmuşdur.

Bu qayğıdan, bu isti münasibətdən güc alan ağdamlılar tükənməz həvəslə çalışır, doğma yurdun hər qarışını cənnətə döndərmək üçün səy və bacarıqlarını əsirgəmir, dövlətə, Prezidentə sədaqətlərini hər məqamda nümayiş etdirməkdən sonsuz qürur duyurdular. Minnətdarlıqla qeyd edilməlidir ki, dövlətin Ağdam rayonunun sosial-iqtisadi inkişafına yönəlik dəstəyinin miqyası yetərincə genişdir. 26280 ağdamlının rahatlığa qovuşduğu yeni qəsəbələrdə yaşayış evlərinin ümumi sahəsi 252 min kvadratmetrə çatır. Yeni qəsəbələrdə 18 ümumtəhsil, 3 musiqi məktəbi, 12 tibb, 10 məktəbəqədər təhsil müəssisəsi, 11 klub, icma mərkəzi inşa olunmuşdur. Bütün qəsəbələr içməli su ilə təmin edilmişdir.

Qədirbilən ağdamlılar Quzanlı qəsəbəsində Heydər Əliyev Mərkəzi inşa etmiş, Ulu Öndərin adını daşıyan mədəniyyət parkı salmış, burada dahi rəhbərin əzəmətli abidəsini ucaltmışlar. Heydər Əliyevin əziz xatirəsinə sonsuz məhəbbət və ehtiramın ifadəsidir ki, onun abidəsi önündə hər zaman təzə-tər qızıl güllər olur.

Şanlı Qələbəmizin reallaşdığı, ərazilərimizin işğaldan azad olunduğu dövrədək Ağdam rayonu ərazisində böyük abadlıq və quruculuq işləri görülmüşdür. Olimpiya idman kompleksi, idarə və müəssisələr üçün yeni inzibati binalar, Bayraq meydanı, müasir tələblərə cavab verən xəstəxana, doğum evi, təcili tibb yardım stansiyası, hotel inşa edilmiş, Ağdam Dövlət Dram Teatrının binası əsaslı təmir edilmişdir.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə 46 min nəfərin yaşadığı 29 yaşayış məntəqəsini birləşdirən 28 kilometrlik Quzanlı-Xındırıstan-Əhmədağalı-Əfətli və 21 min nəfərin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirən Quzanlı-Üçoğlan-Xındırıstan-Səfərli yolları yenidən qurulmuş, Əfətli-Hacıturalı-Həsənxanlı avtomobil yolunun 5,7 kilometrlik hissəsi əsaslı təmir edilmişdir. Bayraq muzeyi, Xalçaçılıq müəssisəsi, Muğam Mərkəzi, Ağdam atçılıq kompleksi inşa olunmuş, Xındırıstan məscidi əsaslı təmir edilmiş, Xındırıstan kəndi ərazisində yeni park salınmış, buradakı ikimərtəbəli köhnə məişət evi əsaslı şəkildə yenidən qurulmuşdur. Ən əsası rayonun bütün yaşayış məntəqələri qazlaşdırılmışdır. Amma bunlar da hələ hamısı deyil. Son 20 ildə Ağdamda 39 ümumtəhsil məktəbi inşa edilmiş, 16 məktəb binası əsaslı təmir olunmuş, 5 modul tipli məktəb quraşdırılmışdır. Bu dövrdə 18 yeni uşaq bağçası tikilmiş, 9 uşaq bağçası isə əsaslı təmir edilmiş, 10 mədəniyyət evi, 3 uşaq musiqi məktəbi, 5 kitabxana tikilib istifadəyə verilmişdir.

Ağdam rayonunun sosial-iqtisadi inkişafını sürətləndirmək, bölgə əhalisinin həyat şəraitini yaxşılaşdırmaq məqsədi ilə Prezident İlham Əliyev 20 ildə 23 sərəncam imzalamışdır. Bu sərəncamların hədəfi Ağdamın inkişafına nail olmaq, ağır məhrumiyyətlər yaşamış ağdamlıları xoş güzərana, firavan həyata qovuşdurmaq olmuşdur.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov dövlətin, Prezident İlham Əliyevin rayona göstərdiyi davamlı dəstəyindən minnətdarlıqla danışır:

- 44 günlük müqəddəs vətən savaşında Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qüdrətli sərkərdə qətiyyəti və Azərbaycan əsgərinin qəhrəmanlığı ilə qazanılan şanlı qələbənin sevinc payı hər bir ölkə vətəndaşı üçün yetərlidir. Şəxsən mən sıradan bir ağdamlı kimi özümü xoşbəxt sayıram ki, düşməndən şəhidlərimizin qisasını layiqincə ala bildik. Müzəffər sərkərdənin rəhbərliyi ilə qəhrəman ordumuz bizi 30 ilin xəcalətindən qurtardı, əyilmiş qəddimizi, bükülmüş belimizi düzəltdi. Şuşada Cıdır düzündə Paşinyan öz quldur dəstəsi ilə yallı gedəndə biz için-için yanıb qovrulur, ölüb dirilirdik. İndi necə qürurlanmayasan ki, Şuşaya qalib kimi qayıtmışıq. Ürəyin necə fərəhlə dolmasın ki, indi Cıdır düzündə beynəlxalq musiqi festifalı keçiririk, həm də beynəlxalq diplomatların, dünyanın məşhur incəsənət xadimlərinin iştirakı ilə. Bu gün ürəyimiz fərəhlə, qürurla döyünür. Qəhrəman övladlarımızın qanı, canı bahasına erməni işğalından azad etdiyimiz Qarabağ və Şərqi Zəngəzur bu gün böyük inşaat meydanına çevrilib. Ermənistan silahlı qüvvələrinin odlara qalayıb viran qoyduqları, 30 il işğalda saxladıqları kəndlər, şəhərlər başdan-başa yenidən qurulur. Həm də xüsusi zövqlə, əsl vətəndaş mövqeyi ilə. Dəfələrlə Ağdamın işğaldan azad edilmiş ərazilərində olmuşam. Erməni barbarlarının daş üstə daş qoymadığı, dünyaya "ruhlar şəhəri" kimi təqdim etdiyi Ağdam qışın şaxtasından qurtulan yaz çiçəkləri kimi sürətlə boy atır. 30 ilin həsrətindən sonra qovuşduğumuz Ağdamın oyanışını, canlanmasını görmək adama qol-qanad, yaşamaq, yaratmaq həvəsi verir. Ağdamın şöhrətli, çal-çağırlı günlərinə yenidən, həm də tezliklə qovuşacağı günlər çox yaxındır. Bunu yeni salınan şəhər və kəndlərdəki tikinti, quruculuq işlərinin, Ağdama çəkilən dəmir yolu və avtomobil yolunun inşasındakı sürət həddi diktə edir. Dünən tarixə qızıl hərflərlə yazılan parlaq qələbəmizi təmin edən Ali Baş Komandan İlham Əliyev bu gün yenidən qurulan Qarabağın, Şərqi Zəngəzurun baş memarıdır. Biz isə öz növbəmizdə üzərimizə düşən vəzifənin məsuliyyətini yüksək dəyərləndiririk. Fəaliyyətimizin əsas istiqaməti Prezident İlham Əliyevin verdiyi tapşırıq və tövsiyələrin icrasını yüksək səviyyədə təmin etməkdir. İşimizi elə qurmağa çalışırıq ki, hər bir rayon sakini, hər bir ağdamlı dövlətin qayğıkeşliyini öz gündəlik həyatında hiss edə bilsin. Əsas hədəfimiz şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının qayğılarına diqqətlə yanaşıb onları həll etməkdir. Birinə yeni ev tikilir, digərinin evi təmir olunur, başqa birinin istəyi əsasında sahibkarlıq fəaliyyəti ilə məşğul olması üçün ona torpaq sahəsi ayrılır və s.

Ötən illərin xronikasının yalnız Ağdama aid olan hissəsinin bəzi məqamlarına nəzərə saldıq. Bu dövrlər çətin, lakin şərəfli bir yol keçmişik. Bu yolun başlanğıcı doğma və isti ocağından perik salınan qaçqın və məcburi köçkün soydaşlarımızın məişət şəraitini yaxşılaşdırmaqdan başlayıb Qarabağın işğaldan azad olunmasından, bu ərazilərdə bərpa və quruculuq işlərinin vüsət almasından keçir.

İndi budur - sentyabrın 19-20-də Azərbaycanın keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində erməni separatçılarının Qarabağdakı son quldur yuvaları da məhv edildi. Azərbaycan əsgərinin əzmini və qüdrətini, Ali Baş Komandanımızın iradəsi və qətiyyətini öz üzərlərində hiss edən qanunsuz erməni silahlıları bir sutka keçməmiş ağ bayraq qaldırdılar. Bununla illərdir günümüzü qara edən, əsrlərdir regionun "qara yara"sına çevrilən erməni separatizminin məhv edilməsi əməliyyatı sona çatdı. İndi Qarabağda yaşayan dinc ermənilərin qarşısında iki yol var - ya Azərbaycan vətəndaşlığını qəbul etmək, ya da Laçın yolu gediş üçün açıqdır.

Biz isə böyük hədəflərə aparan şərəfli yoldayıq. Müdrik rəhbərin, Müzəffər Sərkərdənin, məharətlə reallaşdırılan, uğur diplomatiyasının sayəsində işıqlı sabahlara qovuşacağımız, yeni zəfərlər çalacağımız hər kəsə gün kimi aydındır. Doğru seçilən yolun, inamla atılan hər addımın sonu yalnız qələbədir!

*Lazım QULİYEV,*
*"Azərbaycan"*